# “Bir əsrin xəzinəsi - Bakı Dövlət Universiteti 100 il” kitabının təqdimatı



Bakı Dövlət Universitetində Siyasi elmlər üzrə fəlsəfə doktoru Günel Məliklinin Bakı Dövlət Universitetinin 100 illik tarixinə həsr olunan “Bir əsrin xəzinəsi - Bakı Dövlət Universiteti 100 il” adlı kitabın təqdimat mərasimi keçirilmişdir. Tədbiri giriş sözü ilə açan Bakı Dövlət Universitetinin professoru İzzət Rüstəmov kitabı universitet haqda gözəl bir müntəxəbat kimi qiymətləndirdiyini bildirdi.

Millət vəkili Hadi Rəcəbli isə çıxışında bildirdi ki, bu kitab fədakarlıq məhsuludur: “Bu kitabın təqdimatını çox yüksək qiymətləndirirəm və hesab edirəm ki, bu, fədakarlıq məhsuludur. Müəllif, sözün əsl mənasında, böyük arxiv materialları toplayaraq çap etdirib. Bu da, böyük zəhmət tələb edir. Onun elmi rəhbəri olduğum üçün çox sevinirəm.

Kitabın müəllifi, siyasi elmlər üzrə fəlsəfə doktoru Günel Məlikli qeyd etdi ki, Bakı Dövlət Universitetinin fəaliyyəti Azərbaycan elminin inkişafında böyük rol oynayıb. Bakı Dövlət Universiteti dünyanın qabaqcıl klassik universitetlərindən biri kimi 100 ildə sözün əsl mənasında şərəfli, zəngin inkişaf yolu keçmişdir. Universitetin ilk rektoru olmuş Razumovski Bakıda açılan ali təhsil ocağı haqqında memuarında yazırdı: ***“Azərbaycan öz maarif ocağını yaratdı, türk xalqının tarixinə yeni parlaq səhifə yazıldı. Asiya ilə Avropanın qovşağında yeni məşəl yandı”.***

Azərbaycan dövlətçiliyinin xilaskarı və memarı olan ümummilli lider Heydər Əliyev isə bu elm və təhsil məbədinin adını və şöhrətini yüksəklərə qaldırdırmışdır. Heydər Əliyev BDU-nun yetirməsi olduğunu da hər zaman xatırlatmış, bununla fəxr etdiyini dəfələrlə vurğulamış, bu ali təhsil müəssisəsini Azərbaycan xalqının milli sərvəti adlandırmışdır. Bir çox görüşlərində “Mən fəxr edirəm ki, Bakı Dövlət Universitetinin məzunuyam”, - deyə söyləyən ulu öndər Heydər Əliyev həmişə bu təhsil ocağını ölkənin ali məktəblərinin bayraqdarı - flaqmanı saymış və onu hər yerdə nümunə göstərərək demişdir: “Azərbaycan elmi dünyanın qabaqcıl elmləri sırasındadır. Onun inkişafında məhz Bakı Dövlət Universitetinin fəaliyyəti əvəzsizdir. Bakı Dövlət Universiteti yarandığı gündən Azərbaycanda elmi inkişaf etdirən mərkəzə çevrilmişdir”.

Universitet Azərbaycan Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə böyük uğurlar əldə etmişdir. Dövlətimizin başçısı tərəfindən BDU-nun yüksəlişi ilə bağlı bir sıra mühüm qərarlar qəbul olunmuşdur.

Prezident İlham Əliyevin bu möhtəşəm bayramın dövlət səviyyəsində qeyd edilməsilə bağlı hələ iki il əvvəl - 2017-ci il noyabrın 14-də imzaladığı sərəncamda deyilir: “2019-cu ildə Azərbaycanın nüfuzlu elm və təhsil ocağı Bakı Dövlət Universitetinin təsis edilməsinin 100 illiyi tamam olur. Azərbaycan Xalq Cümhuriyyətinin yadigarı Bakı Dövlət Universiteti müsəlman Şərqində yeni tipli ilk ali məktəb kimi yarandığı vaxtdan etibarən nailiyyətlərlə zəngin şərəfli bir yol keçmişdir” .

Dövlət başçısı sərəncamda qeyd etdiyi kimi: Bir əsrlik fəaliyyəti dövründə xalqına, Azərbaycan adlı Vətənimizə xidmətini göstərmiş ali təhsil məbədimiz Bakı Dövlət Universiteti layiq olduğu yüksək qiyməti almışdır. Bizim ata ocağımız sayılan universitetə Prezidentimizin bu diqqət və qayğısına görə minnətdarıq və onu əmin edirik ki, BDU bundan sonra da müstəqil Azərbaycanın çiçəklənməsi naminə öz bilik və təcrübəsini əsirgəmiyəcək.

“Bir əsrin xəzinəsi - Bakı Dövlət Universiteti 100 il” yazdığım bu kitab qazandığım bütün uğurlarımda ana nəvazişi kimi əziz saydığım müqəddəs elm məbədimiz olan Bakı Dövlət Universitetinin 100 illiyinə bir övlad borcudur. Mən də Bakı Dövlət Universitetinin minlərlə məzunlarından biri kimi, bu müqəddəs elm məbədi qarşısında bir övlad məhəbbəti ilə baş əyərək deyirəm: 100 yaşın mübarək, şanlı Universitetim!

**Arzu ƏLİYEVA,**
**“Respublika”.**

**Respublika.- 2019.- 24 noyabr.- S.6..**